**AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ**

**Q Ə R A R**

**№** 3-44/3-9-20/2024

**Bakı şəhəri** „18" noyabr **2024-cü il**

**Karantin tətbiq edilən zərərli orqanizm aşkar edilmiş sitrus meyvə bağlarında bitki mühafizəsi tədbirlərinin görülməsi haqqında**

Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin (bundan sonra – Agentlik) Lənkəran-Astara regional bölməsinin Bitki sağlamlığı və fitosanitar nəzarəti sektorunun əməkdaşları tərəfindən regional bölmənin əhatə etdiyi inzibati ərazi vahidlərində fitosanitar vəziyyətin müəyyənləşdirilməsi məqsədilə Astara rayonunun Siyakü kəndində yerləşən, fiziki şəxslər İnətullayev Cəbrayıl Məhsud oğluna (0.5 ha), Əhmədov İlqar Sultan oğluna (0.20 ha), Astara rayonunun Kijəbə qəsəbəsində yerləşən, fiziki şəxslər Feyziyev Rasim Feyzi oğluna (0.70 ha), Babayeva Seyidnisa Gəncəli qızına (0.30 ha) və Astara rayonunun Şiyəkəran kəndində yerləşən, fiziki şəxs Qulamov Yunus Rahib oğluna (0.20 ha) məxsus sitrus bağlarında (bundan sonra – sirayətlənmiş sahələr) fitosanitar müşahidələr aparılmış və götürülmüş bitki nümunələri laborator müayinələrə cəlb edilmişdir. Laborator ekspertizanın nəticələrinə uyğun olaraq, 2024-cü il 1 oktyabr tarixli 2F20ZVS/LAB03-24002-T-002 nömrəli, 2024-cü il 1 oktyabr tarixli 1BX8TEG/LAB03-24002-T-002 nömrəli, 2024-cü il 5 noyabr tarixli 1Y5P5DU/LAB03-24002-T-002 nömrəli, 2024-cü il 5 noyabr tarixli 4HN8HD8/LAB03-24002-T-002 nömrəli və 2024-cü il 5 noyabr tarixli 35N7SNZ/LAB03-24002-T-002 nömrəli sınaq protokollarına əsasən, götürülən nümunələrdə karantin tətbiq edilən Sitrus tristeza virusunun (*Citrus tristeza virus*) mövcudluğu təsdiqlənmişdir.

Qeyd olunanlara əsasən, bitki və bitkiçilik məhsullarında zərərli orqanizmlərin kütləvi yayılmasının qarşısının alınmasına, xəstəliklərin aradan qaldırılmasına, məhsul itkisinə yol verilməməsinə, ətraf mühitin və əhalinin sağlamlığının qorunmasına yönəldilmiş bitki mühafizəsi tədbirlərinin həyata keçirilməsi məqsədilə, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə"nin 3.0.33-12-ci yarımbəndinə uyğun olaraq

**Qərara alıram:**

**1.** Agentliyin Lənkəran-Astara regional bölməsinin Bitki sağlamlığı və fitosanitar nəzarəti sektorunun əməkdaşlarına tapşırılsın:

1.1. Astara rayonu ərazisində Sitrus tristeza virusu ilə sirayətlənmiş ərazilərin sərhədləri müəyyən edilsin;

1.2. sirayətlənmiş sahələrdən əkin materiallarının götürülməsinə və digər təsərrüfatlarda əkilməsinə və ya calaq məqsədilə istifadəsinə icazə verilməsin.

**2.** Sirayətlənmiş sahədə yüksək sirayətlənmə əlamətləri müşahidə olunan bitkilər tamamilə, aşağı sirayətlənmə əlamətləri ilə müşahidə olunan bitkilərin zədələnmiş budaqları isə kəsildikdən sonra budanmış hissələr sahədən çıxarılaraq yandırılsın və ya dərin quyularda (1.5-2.0 m dərinlikdə) üzərinə sönmüş əhəng tökülərək basdırılsın.

**3.** Virusun yayılmasının qarşısının alınması məqsədilə budamadan sonra ağaclara 1.5-2%-li Bordo məhlulu çilənsin.

**4.** Sirayətlənmiş sahədə təsərrüfat işləri zamanı istifadə edilən texnika, avadanlıq, alətlər, qablaşdırma vasitələri dezinfeksiya edildikdən sonra digər sahələrdə istifadəsinə icazə verilsin. Budamada istifadə olunan bıçaq, mişar, qayçı və s. alətlər isə istifadədən sonra 3%-li Natrium hipoxlorit məhlulu ilə dezinfeksiya edilsin.

**5.** Yeni bağ salınarkən müayinələrə cəlb edilmiş sağlam əkin materiallarından istifadə edilsin.

**6.** Sorucu həşəratlar, xüsusilə mənənələr *(Toxoptera citricidus, Toxoptera aurantii, Aphis gossypii, Aphis spiraecola, Aphis craccivora, Aphis citricola, Myzus persicae*) virusun daşıyıcısı olduğu üçün bitkinin vegetasiya müddəti, zərərvericinin biologiyası və abiotik amillər (xüsusilə temperatur) nəzərə alınmaqla onlara qarşı kimyəvi mübarizə aparılsın. Pestisidlərlə işləyən zaman tətbiq reqlamenti gözlənilsin və təhlükəsizlik qaydalarına dair təlimatın şərtlərinə əməl edilsin.

**7.** Pestisidlərdən istifadə zamanı istehsal olunan məhsulda pestisidlərin qalıq miqdarının yol verilən həddən artıq olmaması üçün istifadə reqlamenti gözlənilməli və Agentliyin sədrinin 2020-ci il 30 yanvar tarixli Ü/012 nömrəli əmri ilə təsdiq edilmiş "Pestisidlərdən istifadə zamanı təhlükəsizlik və şəxsi gigiyena qaydalarına dair Təlimat"da göstərilən təhlükəsizlik qaydalarına ciddi riayət edilsin.

**8.** Sirayətlənmiş sahədə mənənələrin sahib bitkiləri olan alaq otlarının olmamasına nəzarət edilsin.

**9.** Bu Qərarın icrasına nəzarət Agentliyin Lənkəran-Astara regional bölməsi tərəfindən həyata keçirilsin.

**10.** Bu Qərarın icrasından yayınan şəxslər Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

**11.** Agentlik Aparatının Bitki sağlamlığı və bioloji təhlükəsizlik şöbəsi bu Qərarın aidiyyəti üzrə göndərilməsini təmin etsin.

**Bitki sağlamlığı və bioloji təhlükəsizlik şöbəsinin müdiri,**
**Respublikanın baş dövlət fitosanitar müfəttişi** **Taleh Şəmiyev**

Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyi * Food Safety Agency of the Republic of Azerbaijan
Baş Dövlət Fitosanitar Müfəttişi
Chief Phytosanitary Officer